


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 227 (21.888)

30 noyabr 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Xorvatiya Respublikasının Baş nazirinin müavini, iqtisadiyyat, sahibkarlıq və peşə naziri, Azərbaycan-Xorvatiya iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyasının həmsədri xanım Martina Daliçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Dövlətimizin başçısı noyabrın 29-da Kosta Rika Respublikasının xarici işlər və etiqad naziri Manuel Qonzales Sanzı qəbul edib.

* * *

Prezident İlham Əliyev noyabrın 29-da CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## R.X.Xudiyevin Naxçıvan Muxtar Respublikası mədəniyyət və turizm nazirinin müavini təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəşad Xəlil oğlu Xudiyev Naxçıvan Muxtar Respublikası mədəniyyət və turizm nazirinin müavini təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 29 noyabr 2017-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ədliyyə orqanlarında ali xüsusi rütbəli vəzifələrin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 8, maddə 671; 2007, № 12, maddə 1223; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 80, № 7, maddə 622; 2012, № 12, maddə 1273; 2016, № 11, maddə 1826; 2017, № 6, maddə 1072; Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 7 noyabr tarixli 1670 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ədliyyə orqanlarında ali xüsusi rütbəli vəzifələrin Siyahısı"nda "Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri - II dərəcəli dövlət ədliyyə müşaviri" abzasından sonra aşağıdakı məzmunda abzaslar əlavə edilsin:

| | |
|---|---|
| Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini | III dərəcəli dövlət ədliyyə müşaviri |
| Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini – Penitensiar Xidmətin rəisi | ədliyyə general-mayoru |

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 noyabr 2017-ci il*

## T.E.Həsənova ədliyyə general-mayoru ali xüsusi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini – Penitensiar Xidmətin rəisi Tofiq Etibar oğlu Həsənova ədliyyə general-mayoru ali xüsusi rütbəsi verilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 29 noyabr 2017-ci il*

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

` Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2017-ci ilin noyabr ayında bir sıra qərarlar qəbul etmişdir.

Belə ki, Nazirlər Kabinetinin 2017-ci il 3 noyabr tarixli 112 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikasının gömrük sərhədindən elektrikötürücü xətlər vasitəsilə keçirilən mallar üzərində gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları"nda dəyişiklik edilmiş, 113 nömrəli qərarı ilə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumunun və qanunvericiliyə uyğun olaraq tətbiq edilən cərimələrdən (ödənişlərdən) daxil olan vəsaitin həmin xidmətləri və hüquqi hərəkətləri həyata keçirən və ya təşkil edən dövlət orqanlarının, habelə dövlət notariat kontorlarının xəzinə hesabına köçürülməsi, istifadə edilməsi, uçota alınması və hesabatın təqdim edilməsi Qaydaları" təsdiq edilmişdir. Müvafiq Qaydalara əsasən büdcədənkənar vəsaitlər təsdiq edilmiş gəlirlər və xərclər smetasına uyğun olaraq dövlət rüsumunu tutan və cərimə (ödəniş) tətbiq edən təşkilatların işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, habelə maddi-texniki bazanın yaxşılaşdırılması məqsədilə istifadə edilir. Gəlirlər və xərclər smetasının təsdiq edilməsinə qədər büdcədənkənar vəsaitlərin xərclənməsinə yol verilmir.

Nazirlər Kabinetinin 2017-ci il 8 noyabr tarixli 115 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikasında qəbirüstü işlərin ölçüləri və təsvirləri" təsdiq edilmişdir. Həmçinin Nazirlər Kabinetinin 2017-ci il 11 noyabr tarixli 116 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası", 117 nömrəli qərarı ilə "İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası", 118 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikası vergi orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, vergi orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası" və 119 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikası ədliyyə orqanları işçilərinin attestasiyası Qaydası" təsdiq edilmişdir. Sonuncu qərara görə, yalnız müvafiq vəzifələrdə azı 1 (bir) il çalışan işçinin attestasiyası keçirilə bilər. İşçinin attestasiyası 5 (beş) ildə bir dəfədən çox olmayaraq keçirilir.

Bununla yanaşı, Nazirlər Kabinetinin 2017-ci il 11 noyabr tarixli 120 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı"nda, 2017-ci il 24 noyabr tarixli 123 nömrəli qərarı ilə "Naxçıvan Muxtar Respublikasının gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nda dəyişikliklər edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar. nakhchivan.az)* tanış olmaq mümkündür.

***Muxtar respublikamızda davamlı inkişafa nail olmaq həyata keçirilən sosial-iqtisadi siyasətin əsas məqsədlərindən biridir. Bunun üçün regionda iqtisadi artımın yüksələn dinamikasını qoruyub saxlamaq daim diqqət mərkəzindədir. Dünyadakı mürəkkəb iqtisadi şəraitə baxmayaraq, ölkəmizdə və onun tərkib hissəsi olan muxtar respublikamızda həyata keçirilən tədbirlər, son nəticədə, əhali gəlirlərinin artmasında və rifahın yüksəlməsində də hiss olunmaqdadır ki, bu da davamlı inkişafın əsas şərtlərindən biridir.***

## Davamlı iqtisadi inkişaf təmin edilib

### *Cari ilin ötən 10 ayının nəticələri bunu deməyə əsas verir*

Aparılan təhlillər göstərir ki, Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, yeni iş yerlərinin yaradılması və səmərəli məşğulluğun təmin olunması sahəsində aparılan dövlət siyasəti bu məqsədlərə çatmaqda əsas rol oynayıb. Belə ki, iqtisadi inkişafın ən mühüm göstəricilərindən biri olan ümumi daxili məhsulun həcminə baxdıqda muxtar respublikada 2017-ci ilin yanvar-oktyabr aylarında 2 milyard 112 milyon 48 min 200 manatlıq ümumi daxili məhsul istehsal olunduğunu görürük ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur. Bəhs olunan dövrdə regionda sənaye, kənd təsərrüfatı, tikinti-quruculuq, xarici ticarət, bank-kredit və xidmət sahələrində də artım dinamikası təmin olunub, əhali gəlirlərində yüksəliş templəri qorunub saxlanılıb. Belə ki, cari ilin yanvar-oktyabr aylarında muxtar respublikada əhalinin gəlirləri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz artaraq 1 milyard 444 milyon 127 min 700 manat, onun hər bir nəfərə düşən məbləği isə artaraq 3204,2 manat təşkil edib. Bu dövr ərzində muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 415,1 manat təşkil edib ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çox deməkdir.

Əhali gəlirlərinin artmasında sahibkarlıq fəaliyyətinin mühüm təsiri vardır. Naxçıvanda sahibkarlıq fəaliyyətinin, xüsusən kiçik və orta sahibkarlığın dəstəklənməsi ötən dövr ərzində də məşğulluğun səviyyəsinin artırılmasına və əhali gəlirlərinə öz təsirini göstərib.

Sahibkarlığın genişləndirilməsində onlara göstərilən kredit dəstəyinin rolu böyükdür. Təsərrüfat subyektlərinin fəaliyyətinin daha da genişləndirilməsi məqsədilə cari ilin yanvar-oktyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 25 milyon 881 min 900 manat məbləğində kreditlər verilib. Həmin kreditlərin 3 milyon 791 min manatı və yaxud 14,6 faizi qısamüddətli, 22 milyon 90 min 900 manatı və yaxud 85,4 faizi uzunmüddətli kreditlər olub. Bunun vasitəsilə Naxçıvan Muxtar Respublikası iqtisadiyyatı üçün çox mühüm olan yeni istehsal və xidmət sahələrinin yaradılmasına, nəticədə isə əhali gəlirlərinin artırılmasına nail olunub.

Sənayenin inkişafı Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının əsasını təşkil edir. Məhz sənaye sahəsi muxtar respublikada istehsal olunan ümumi daxili məhsulun tərkibində ilk yeri tutur. Bu vacib sahədə yeni texnologiyalardan istifadə öz bəhrəsini verməkdədir. Belə ki, cari ilin ilk 10 ayında sənaye üzrə 808 milyon 516 min 800 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 1,5 faiz üstələyib.

Kənd təsərrüfatı da muxtar respublika əhalisinin əsas məşğuliyyət sahələrindən biridir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsi olaraq cari ilin yanvar-oktyabr aylarında 366 milyon 927 min 400 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricidən 4 faiz çoxdur.

Xarici ticarət Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının mühüm göstəricilərindəndir. Müasir dövrdə Naxçıvanın ixrac imkanlarının artması bu sahəyə olan diqqəti daha da artırıb. Nəticədə, 2017-ci ilin yanvar-oktyabr aylarında muxtar respublikada 360 milyon 203 min 800 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. 299 milyon 215 min 800 ABŞ dolları dəyərində müsbət saldo yaranıb. Bu da, öz növbəsində, ölkəmizin valyuta ehtiyatlarının artmasına və iqtisadi təhlükəsizliyimizin təmin olunmasına mühüm töhfədir.

✍ **Əli CABBAROV**

## Yaradılan elektrik stansiyaları muxtar respublikanın enerji təhlükəsizliyinə mühüm töhfələr verir



***Enerji təhlükəsizliyi bu gün bütün dünyada həllivacib məsələlərdən biri hesab olunur. Müstəqilliyimizin ilk illərində muxtar diyarımızda enerji ilə bağlı ciddi problemlər yaşandı. Blokada vəziyyəti isə, sözün həqiqi mənasında, Naxçıvanı zülmətə qərq etmişdi. Həmin dövrdə Ali Məclisin Sədri vəzifəsində olan ulu öndər Heydər Əliyev qonşu Türkiyə və İran İslam Respublikası ilə danışıqlar apармış, şəxsi nüfuzu sayəsində enerji idxalına nail ola bilmişdi. Bu gün xalqımızın böyük oğlunun müəyyənləşdirdiyi uğurlu siyasətin davamçıları Naxçıvanı işıqlı günlərə qovuşdurub.***

*Keçmişə qısa ekskurs, bu günə nəzər*

Ötən əsrin sonlarından başlayaraq Naxçıvanda enerjiyə olan tələbat çox, təminat isə olduqca aşağı səviyyədə idi. Ölkənin iqtisadi həyatında mühüm rol oynayan dəmir yolu nəqliyyatında qatarların hərəkətinin dayanması ucbatından digər enerji daşıyıcıları olan odun, daş-kömür və neft məhsulları da qəhətə çəkilmiş, əsas güc energetika sahəsinin üzərinə düşmüşdü. Sovet dönəmində Araz çayı üzərində tikilmiş elektrik stansiyası isə tələbatın yalnız kiçik bir hissəsini ödəyirdi. O da, ilk növbədə, yaşayış üçün zəruri olan mühüm obyektlərin – çörək zavodlarının, xəstəxanaların işlədilməsinə yönəldilirdi. Özü də fasilələrlə.

Yaşanan çətinlikləri Babək rayonunun Qahab kənd sakini Əmirah Rzayev belə xatırlayır: "Həmin dövr naxçıvanlılar üçün ən çətin və məşəqqətli illərdən idi. İmperiyanın caynağından yenicə azad olmuşduq, və demək olar ki, infrastruktur, qaz, enerji təsərrüfatı, sənaye, bir sözlə, hər şey iflic vəziyyətdə idi. Enerji böhranı özlüyündə iqtisadiyyatın və sənayenin digər sahələrini də iflasa uğratmış, ərzaq böhranı, xüsusən çörək növbələri dükan-bazarların "bəzəyinə" çevrilmişdi. Yaxşı xatirimdədir. Həmin vaxt tələbə idim və dərsə vaxtında çatmaq üçün səhərin erkən saatlarından şəhərə yollanırdım. Enerji olmadığı üçün şəhərdaxili trolleybuslar da fasilələrlə işləyirdi".

Naxışnərgiz kənd sakini 70 yaşlı İsmayıl Zamanov da o günlərin canlı şahidlərindəndir. Həmsöhbətimin dediklərindən: "Elə olurdu ki, günlərlə işıqsız qalırdıq. Digər enerji mənbələri – neft, kerosin tapmaq da müşkül məsələyə çevrilmişdi. Bir sözlə, ağır günlər yaşamışıq".

Ümummilli lider Heydər Əliyev həmin dövrdə regionda yaşanan çətinliklər barədə belə demişdir: ***"Gecə saat 2-yə, 3-ə qədər iş otağımda az işıq verən neft lampası ilə oturub işləyirdim. Bunu hamı bilirdi. Evlərə elektrik, istilik vermək üçün heç bir imkan yox idi. İnsanlar, həqiqətən, donurdu".***

Xalqımızın böyük oğlu Ali Məclisin Sədri vəzifəsində çalışarkən onun Naxçıvanın xilası uğrunda fəaliyyətinin əsas istiqaməti bu diyarın energetika və yanacaq problemlərinin həllinə yönəldilmişdi. Qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına edilən səfərlər zamanı əsas məsələlərdən biri də Naxçıvanın enerji təhlükəsizliyi ilə bağlı idi. Ulu öndərin apardığı danışıqlar nəticəsində bu ölkələrdən muxtar respublikaya elektrik enerjisinin nəqlinə başlandı. Sonrakı illərdə Naxçıvanda müxtəlif tutuma və gücə malik transformator yarımstansiyaları quraşdırıldı, yüksəkgərginlikli elektrik verilişi xətləri çəkildi, enerji təchizatının etibarlılığını yüksəltmək üçün mühüm tədbirlər görüldü. Sonrakı illərdə muxtar respublikamızda alternativ enerji mənbələrindən bəhrələnən elektrik stansiyaları da inşa olundu. Bu, Naxçıvanın enerji təhlükəsizliyində yeni bir mərhələnin başlanğıcı idi.



Son olaraq bu ilin yanvar ayında muxtar respublikaya səfərə gələn ölkə rəhbəri Ordubad Su Elektrik Stansiyasının da təməlqoyma mərasimində iştirak edib, bu sahənin əhəmiyyətindən danışaraq deyib: ***"Enerji potensialı və enerji təhlükəsizliyi Naxçıvan üçün xüsusi əhəmiyyət daşıyır. Çünki ölkəmizin əsas hissəsi ilə Naxçıvanın coğrafi əlaqəsi yoxdur. Belə olan halda biz mütləq enerji potensialının inkişafına fikir verməliyik. Bu gün Naxçıvan elektrik enerjisi ilə tam təmin olunub və eyni zamanda enerji ixrac edir".***

Məlumat üçün deyək ki, əgər Naxçıvanda ötən əsrin 90-cı illərində tək Araz Su Elektrik Stansiyası vasitəsilə cəmi 22 meqavat elektrik enerjisi əldə olunurdusa, indi artıq 8 stansiya vasitəsilə bundan 10 dəfə çox enerji əldə etmək imkanı yaranıb. Heydər Əliyev Su Anbarının üzərində qurulan Vayxır Su Elektrik Stansiyası 4,5 meqavat gücündədir. Stansiyada 3 generator quraşdırılıb. Beləliklə, Naxçıvanın enerji təminatı su elektrik stansiyalarının xətti ilə icra olunmağa başlayıb.

İllər öncə yaşanılan iqtisadi blokadanın caynağından xilas edilən bu diyarın ən ucqar dağ və sərhəd kəndləri belə, bu gün dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təmin olunur. Bu təminata stimul verən stansiyalardan biri də 2006-cı ildə dövlət başçısının iştirakı ilə istifadəyə verilən və ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyasıdır. Burada hər birinin gücü 8,7 meqavat olan 10 generator quraşdırılıb. Stansiya muxtar respublikanın enerjiyə olan tələbatının böyük bir hissəsini ödəyir. Belə ki, bu ilin ötən dövrü ərzində 230 milyon 275 min kilovat-saat enerji hasil olunaraq muxtar respublikanın enerji şəbəkəsinə ötürülüb.

Son illər isə doğma diyarımızda alternativ və bərpa olunan enerji mənbələrindən istifadə etməklə təminat daha da yaxşılaşdırılıb. 2015-ci ildə Babək rayonu ərazisində Naxçıvan Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi görülən işlərin məntiqi davamı idi. Bu ilin sentyabr ayında stansiyanın istehsal gücü artırılıb, burada 86 min 387 ədəd ən müasir şüşə-şüşə tipli günəş panelləri quraşdırılıb.

Açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Enerji təhlükəsizliyinin təmin olunması, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə o ölkələrdə mümkün olur ki, həmin ölkələrdə sabitlik və inkişaf olsun. Bu gün ölkəmizdə bu tədbirlər uğurla həyata keçirilir. Naxçıvanda Günəş Elektrik Stansiyası qurularkən ərazi və şirkət düzgün seçilmişdir. Belə ki, Günəş Elektrik Stansiyasının yerləşdiyi ərazi əkinəyararsız torpaq sahəsidir. Şirkət isə günəş elektrik stansiyalarının qurulmasında ən müasir texnologiyaya əsaslanan şüşə-şüşə tipli panellərdən istifadə edir ki, bu da əraziyə qənaət olunmasına və stansiyanın yüksək iş əmsalı ilə fəaliyyət göstərməsinə imkan verir".***

Hazırda Günəş Elektrik Stansiyası Naxçıvanın enerji təminatında, təqribən, 8 faizlik bir paya malikdir. Başqa sözlə, cari ilin ötən dövrü ərzində Naxçıvan Muxtar Respublikasında elektrik şəbəkəsinə ötürülmüş enerjinin 27 milyon 500 min kilovat-saatı bu stansiyanın payına düşüb. Əlavə olaraq stansiyanın istehsal gücü artırılıb, quraşdırılan şüşə panellərin ərazisi 36 hektara çatdırılıb.

*Fasiləsiz enerji güclü iqtisadiyyat, müasir inkişaf deməkdir*

Bəli, ötən 25 il ərzində böyük bir məsafə qət etmişik. Bu, inkişaf, müasirlik, yenilik, tərəqqi yoludur. Kəndlərimizdə fasiləsiz elektrik enerjisi şölələnirsə, yeni-yeni istehsal müəssisələri, fabrik və zavodlar istifadəyə verilir, yeni iş yerləri açılır, torpaqların suvarılması həyata keçirilir və beləliklə, insanların sosial rifah halı yaxşılaşırsa, deməli, muxtar diyarımızda enerji böhranı öz uğurlu həllini tapıb.

Artıq Naxçıvanın gündüzləri kimi, gecələri də başqa hüsndədir. Müasir işıqlandırma sistemləri şəhərimizin bəzəyinə çevrilib. Hər bir muxtar respublika sakini və qonaqlar isə bu əsrarəngiz mənzərə qarşısında öz heyranlıqlarını gizlədə bilmirlər. "Yerdəki ulduzlar" bu müasir şəhərin hüsnünə yeni çalarlar qatır. Əzəmətli Naxçıvan torpağı yenə də əzəmətli görünür. Fərqi yoxdur, gündüz, ya da ki gecə.

**Muxtar RZAZADƏ**
***"Şərqin səhəri" qəzetinin redaktoru***

***Azərbaycanın vergi sistemi humanizm prinsiplərinə əsaslanmaqla yanaşı, vətəndaşların üzərinə çox ciddi vicdan məsuliyyəti də qoyur. Yəni vətəndaş dərk etməlidir ki, onun hüquq və mənafelərini qoruyan dövlətin büdcəsi, əsasən, ödədiyi vergilərdən formalaşır. Bu sıraya əməkhaqqı və pensiyalardan tutmuş ən müxtəlif təyinatlı müavinətlər daxildir. Onların zamanında təyinatı üzrə ödənməsi insanların vergi ödənişində vicdanlı davranmasından çox asılıdır. Odur ki, vergi öhdəliyinə münasibətdə bunun həm də mənəvi tərəfini nəzərə alsaq, ümumi prosesdən həm dövlət, həm də vətəndaşlar qazanclı çıxar.***

## Daşınmaz əmlakla bağlı vergi qanunvericiliyinin tələblərinə əməl etmək vətəndaşlıq borcudur

Bu gün Naxçıvan şəhərində və bölgələrimizdə mənzillərin orta kirayə haqqı 150-300 manat arasında dəyişir. Bu isə il ərzində əldə olunan gəlir baxımından heç də az məbləğ deyil və ümumi hesablamada ev sahiblərindən vergi tutulması ilə büdcəyə xeyli vəsait daxil etmək mümkündür. Ancaq bir şərtlə ki, evini kirayə verib gəlir əldə edən sakinlərimiz vergiyə cəlb olunmağa könüllü şəkildə maraq göstərsinlər.

Gəlir mənbəyi kimi daşınmaz əmlakdan vergini hesablamaq və onu dövlət büdcəsinə ödəmək vergi ödəyicilərinin vəzifələrindədir. Bu vəzifələrin lazımınca yerinə yetirilməməsi qanunvericiliyə əsasən məsuliyyətə cəlb olunmağa səbəb olur. Belə ki, Vergi Məcəlləsinin 124-cü maddəsinə görə daşınan və daşınmaz əmlak üçün icarə haqqında bu məcəllənin 13.2.16-cı maddəsinə uyğun olaraq ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulur. İcarə haqqı vergi ödəyicisi kimi uçotda olmayan fiziki şəxs tərəfindən ödənildikdə, icarəyə verən 14 faiz dərəcə ilə vergini özü ödəyir. İcarə haqqından gəlir əldə edən fiziki şəxslərdən ödəmə mənbəyində vergi tutulmuşdursa və onun tərəfindən vergi ödənilmişdirsə, həmin gəlirlərdən bir daha vergi tutulmur. Qeyd edək ki, daşınmaz əmlakdan ödəmə mənbəyində vergini hesablamaq və dövlət büdcəsinə ödəmək qaydalarının pozulmasına görə vergi ödəyiciləri müəyyən sanksiyalara məruz qala bilərlər. Belə ki, Vergi Məcəlləsinin 58.2-ci maddəsinə görə bu məcəllənin 33.4-cü maddəsində göstərilən müddətdə vergi orqanında uçota alınmaq üçün ərizənin verilməməsinə görə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir. Həmçinin Vergi Məcəlləsinin 59.1-ci maddəsinə görə vergi və ya cari vergi ödəməsi bu məcəllə ilə müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün vergi ödəyicisindən və ya vergi agentindən nəzərdə tutulan məbləğin 0,1 faizi tutulur. Evlərini kirayə verənlər risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamaq üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməlidirlər.

Məlum olduğu kimi, vergi orqanlarının dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətləri Vergi Məcəlləsində öz əksini tapmışdır. Belə ki, məcəllənin 26.1-ci maddəsinə əsasən vergi orqanları öz vəzifələrini mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquq-mühafizə, maliyyə və digər dövlət orqanları ilə qarşılıqlı əlaqədə həyata keçirirlər. Vergi Məcəlləsinin 26.2 maddəsinə görə vergi orqanlarının vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar digər dövlət hakimiyyəti orqanları vergi orqanlarına kömək edir və zəruri hallarda müəyyən edilmiş qaydada onlara lazımi məlumatları verirlər.

Günümüzün reallığı bundan ibarətdir ki, daşınmaz əmlakdan ödəmə mənbəyində verginin tutulması bəzi hallarda mümkün olmur. Buna səbəb isə vergini hesablamağa və dövlət büdcəsinə ödəməyə borclu olan vergi ödəyicilərinin marağının yetərincə olmamasıdır. Belə ki, vətəndaş bir mənzildə rəsmi müqavilə bağlamadan kirayə qalır və bu halı həm mənzilin sahibi (kirayə verən), həm də kirayədə qalan şəxs dövlət orqanlarından gizlətməklə dövlət büdcəsinə ödənilməsi vergidən yayınırlar.

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin şöbə rəisi Zahid Qəribov deyir ki, nazirlik müvafiq yerli icra hakimiyyəti orqanları ilə birgə fəaliyyətinin daha geniş təşkil olunması üçün bir sıra işlər görür. Yerli vergi orqanları tərəfindən müvafiq icra hakimiyyəti orqanlarına rəsmi müraciət olunmaqla rübdə bir dəfə mənzil istismar idarələrindən tabeliklərində olan yaşayış sahələrindəki kirayə verilmiş mənzillərlə bağlı məlumatlar alınır və buna uyğun olaraq ödənilməsi verginin kirayəçi və ya kirayə verən tərəfindən dövlət büdcəsinə ödənilməsi təmin edilir. Bunun üçün yerli vergi orqanları tərəfindən əldə edilmiş rəsmi məlumatlara istinadən mənzilin sahibi olan, kirayə verən və ya orada kirayə qalan şəxslərlə əlaqə saxlanılaraq vergi qanunvericiliyinin tələbləri onlara izah olunur və bu sahədə əməli tədbirlərin həyata keçirilməsi təmin edilir. Bunun nəticəsidir ki, bu sahədən dövlət büdcəsində daxil olan vəsaitlərin məbləğində artım müşahidə edilir. Bu iş təkcə Naxçıvan şəhərində deyil, bölgələrimizdə də davam etdirilir.

Bu sahədə irəliləyişlərin əldə edilməsi maarifləndirici tədbirlərin daha da gücləndirilməsi sayəsində mümkün olub. Misal üçün, heç bir yerdə işləməyən, lakin evini kirayə verməklə gəlir əldə edən insanlara izah edilir ki, vergi ilə yanaşı, DSMF ödənişləri etsələr, gələcəkdə təqaüdə çıxanda onun yüksək olmasına nail olacaqlar.

Kirayə müqaviləsi imzalamayıb, bu müqaviləni rəsmiləşdirmədən, sadəcə, şifahi sövdələşmə ilə mənzili kirayə verməyin sonradan həm mənzil sahibinə, həm də kirayəçiyə müəyyən problemlər yarada biləcəyi də danılmaz faktdır. Əks-təqdirdə tərəflərin üzərlərinə götürdükləri öhdəliklər rəsmiləşdirilmədiyindən, rahatlıqla məsuliyyətdən qaça, bir-birinə qarşı haqsızlıq, hüquq pozuntusu edə bilərlər. Amma müqavilə mövcud olanda, tərəflər öz üzərlərinə düşən məsuliyyəti hiss edərlər. Fikirlərimizi ümumiləşdirsək, daşınmaz əmlakını kirayə verən vətəndaş bütün hərəkətlərini qanunla tənzimləməlidir.

Təbii ki, mənzilini kirayə verən vətəndaş ölkəmizin qanunlarına hörmətlə yanaşmalı, qanunvericiliyin tələbləri əsasında fəaliyyətini qurmalıdır. Bu, ev sahiblərinin təhlükəsizliyi üçün də vacibdir. Əgər kirayəçilər hər hansı bir qanunsuz hadisə törədibsə, istintaq prosesində mənzil sahibi də prosedura cəlb edilə bilər. Belə ki, qanuna görə mənzilini kirayə verən şəxs kirayəçinin hər hansı cinayət əməlinə görə məsuliyyət daşımır. Lakin bu halda belə, kirayə verən şəxs polisə çağırılır, müvafiq izahat alınır, müəyyən prosedur işlər həyata keçirilir. Polis qanun çərçivəsində məsələyə yanaşarsa, qısa zamanda araşdırma aparar, qonşuların və başqalarının məlumatı ilə ev yiyəsinin törədilən cinayət əməlində hər hansı marağının, məlumatının, iştirakının olmadığını üzə çıxarar. Əgər kirayə verən kirayəyə götürülən mənzildə hər hansı cinayət əməlinin baş verəcəyini bilib polisə xəbər verməzsə, cinayətin iştirakçısı olarsa, yaxud kirayəçinin cinayətkar olmasından məlumatlı ola-ola polisə xəbər verməzsə, bu halda məsuliyyət daşıyır. Ona görə də evini kirayə verən şəxslər qanun çərçivəsində iş görməlidirlər.

**Səbuhi HÜSEYNOV**

Tarixdən bu günə

# Müasirliyi və tarixiliyi özündə yaşadan yurd yerimiz ORDUBAD

***Naxçıvan Muxtar Respublikasının bölgələri içərisində Ordubad rayonu qədimliyi və özünəməxsusluğu ilə seçilir. Abadlıq və quruculuq işləri sayəsində bu yurd yerimiz simasını dəyişir, gündən-günə gözəlləşir və yeni quruculuq dövrünü yaşayır. Zəngəzur dağlarının ətəyində yerləşən rayon mərkəzi isə təkcə Qafqazın deyil, bütövlükdə, Şərqin və Avrasiyanın köksündə özünə yuva qurmuş müasir Azərbaycan şəhəridir.***



Xalqımızın ümummilli lideri Heydər Əliyev Ordubadı “Azərbaycanın incisi” adlandırıb. Bura təkcə təbii gözəllikləri, relyefi, flora və faunası ilə yox, həm də yüksək mədəniyyətdən, mənəvi irsdən xəbər verən, tarixilik baxımından diqqəti cəlb edən qədim yurd yerləri və məskənləri ilə də tanınır.

Yolumuzu Ordubaddan saldığımız zaman Kiçik Qafqaz sıra dağlarının ən uca zirvəsi sayılan Qapıcıq dağından, başları qarlı Soyuq, Ənövür, Bəlkə dağlarından, “Şıxı yurdu”, “Qurban yurdu” və “Salabun”dan keçərək “Zəvvar” arxı ilə gəlib kiçicik şəlalə kimi çaylarımıza tökülən buz kimi sərin çeşmələr, kəhrizlər, təmiz dağ havası, bol məhsullu meyvə bağları, yol kənarında yeni əkilmiş ağaclar, göz oxşadıqca uzanan əkin sahələri, qədim Şərq üslubunda tikilmiş memarlıq abidələri gözümüzü, könlümüzü oxşayır.

Şəhərin mərkəzinə doğru irəlilədikcə burada müasirliyin və tarixi gözəlliyin seyrinə qapılmamaq mümkün deyil. Mərkəzi küçə ilə üzüyuxarı qalxdıqca isə ilk müşahidə etdiyimiz mənzərə qoca çinarların dəstəsinə qoşulmaq istəyən yol kənarlarında nizamla əkilmiş yeni çinar ağacları olur. Ordubad ta qədimdən əsrlərlə yaşı olan çinarları ilə məşhur olub. Təkcə Ordubad şəhərində deyil, eyni zamanda rayonun kəndlərində də yaşlı çinarlara rast gəlmək mümkündür. Bu gün həmin çinarların kölgəsi Ordubad sakinlərinin və qonaqların söhbətləşib, çay içib istirahət etdiyi məkanlardan biridir. Ordubad həm də özünün qonaqpərvərliyi ilə seçilir. Belə ki, buraya İrandan, Türkiyədən, Rusiyadan və başqa ölkələrdən hər il yüzlərlə turist gəlir. Ordubad təbiətinin gözəlliyi, tarixin və müasirliyin vəhdəti turistləri bu gözəl məkana baş çəkməyə vadar edir. Rayonun coğrafi mövqeyinə gəldikdə isə bir tərəfdə başıqarlı dağları, digər tərəfdə yaz aylarında yaşıllıq timsalı, payızda isə sarı yarpaqlarla əhatə olunmuş təbiət mənzərəsini, gur sulu çayları, şırıltı ilə axan şəlalələri seyr etmək mümkündür.

Ordubad həm də elə bir unikal yerdir ki, haqqında bəhs edərkən onun tarixi keçmişinə toxunmaya bilmirsən. Çünki bu keçmişə, özünəməxsusluğa sadiqlik Ordubadın müasir inkişafının əsas göstəricisidir. Ordubad hələ qədim zamanlardan Şərq memarlıq ənənələrini özündə yaşadan, zəngin milli ornamenti, özünəməxsus memarlıq üslubu ilə seçilən tarixi abidələri ilə məşhur olub. Azərbaycan tarixinin, mədəniyyətinin, folklorunun, bir sözlə, milli irs və düşüncə sisteminin unikal ifadə vasitəsinə çevrilmiş bu tarix-memarlıq abidələri həm də Ordubadın hələ orta əsrlərdən bəri formalaşan şəhər mədəniyyətindən xəbər verir. Bu gün qabaqcıl şəhərsalma təcrübəsi tətbiq edilərək yenidən qurulan, hər il neçə-neçə müasir binalar ucaldılan Ordubadda tarix-memarlıq abidələrinə də diqqət və qayğı artırılıb. Burada aparılan quruculuq işləri şəhərin əsas memarlıq üslubu saxlanılmaqla həyata keçirilir, tarixi abidələr bərpa olunur. Şərq və Avropa memarlığının sintezi nəticəsində qədim görünüşü qorunub saxlanılmaqla müasir bir şəhər yaradılıb. Ordubad məbədi də daxil olmaqla bərpa olunan tarix-memarlıq abidələri ilə müasir abidələr vəhdət təşkil etməklə, şəhərə xüsusi gözəllik verir.

Ordubad həm də qədim sənətkarlığın inkişaf etdirildiyi şəhərlərdən olub. Tarixboyu burada müxtəlif sənət sahələri formalaşıb. Bu da şəhərin həm də mühüm sənətkarlıq mərkəzinə çevrilməsinə imkan verib. Burada Şərq memarlığına məxsus elementlərdən istifadə edilməklə müxtəlif tarixi tikililər, əhalini su ilə müntəzəm təmin etməyə imkan verən yeraltı su xətləri olan kəhrizlər, məscid və meydanlar vardır. Şəhər ərazisində olan tarixi abidələr həyata keçirilən abadlıq-quruculuq işləri nəticəsində daha da təkmilləşib, yeniləşib.





Azərbaycanda arxeoloji-memarlıq abidələrinin sayına görə Ordubad qabaqcıl yerlərdən birini tutur. Bu abidələr memarlıq sənətinin, inşaat texnikasının müstəsna dəyərli nümunələri olmaqla yanaşı, həm də gözəl sənət əsərləridir.

Burada eradan əvvəl II və I minilliklərə aid Xaraba Gilan tapıntıları, eradan əvvəl III əsrin Gəmiqaya qayaüstü rəsmləri, orta əsrlərə aid Kilit mağarası, XIV əsrin yadigarları Mingis və “Came” məscidləri, XVII əsr abidəsi Qeysəriyyə-Zorxana, XVIII əsrə aid Sərşəhər, Təkeşiyi, Üçtürləngə məscidləri, XIX əsrin Ordubad hamamı, Buxxana, Pir Eyvaz türbəsi (XVIII) də qədim dövrlərdə şəhərin mədəni həyatının çox zəngin olmasını göstərir. Bu abidələr ulu keçmişimizin tarixi yadigarlarıdır. Ordubad şəhərinin mərkəzində 7 min nəfərlik “Cümə” məscidi qədim memarlıq abidəsi kimi indi də şəhərin qonaqlarını heyrətə salır.

Ordubad rayonunda tariximizi, mədəniyyətimizi, milli irsimizi özündə yaşadan abidələr, muzeylər bu gün turistlərin diqqətini cəlb edir. Rayona gələn hər bir xarici qonağın baş çəkdiyi və Ordubadla bağlı yüksək təəssürat yaradan məkanlardan biri də məhz elə Tarix-Diyarşünaslıq Muzeyidir. Hazırda Qeysəriyyə binasında fəaliyyət göstərən, 4000-dən çox eksponatın toplandığı muzeydə xalq sənətkarlarının əsərləri, tətbiqi-sənət nümunələri, rayon ərazisində aşkara çıxarılmış arxeoloji tapıntılar xüsusi yer tutur. Burada Ordubadın tarixi ilə bağlı ətraflı məlumata yiyələnmək, tarixi özündə yaşadan eksponatlarla da tanış olmaq mümkündür.

Orada olarkən muzey bələdçisi bildirdi ki, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi 1981-ci ildə 150 ədəd eksponatla fəaliyyətə başlamışdır. 1990-cı ilin may ayından muzey XVII əsrin abidəsi olan Qeysəriyyə-Zorxana binasında fəaliyyət göstərir. “Qeysəriyyə” sözünün mənası isə keçmişdə şahlara məxsus daş-qaş, əşyaların ləl-cəvahirə satılması məqsədilə tikilmiş örtülü “Şərq bazarı” deməkdir. Qeysəriyyə abidəsində yerləşən Tarix-Diyarşünaslıq Muzeyində 15 guşə təşkil edilib. Burada ibtidai insanların istifadə etdiyi daş əmək alətləri, eradan əvvəl III-I minilliklərə aid Gəmiqaya qranit daşları, Ordubad dəmirçilərinin əl işləri və müxtəlif eksponatlar sərgilənir. Muzeyə gələnlərin diqqətini, ilk növbədə, ekspozisiya zalı cəlb edir. Bura gələn xarici qonaqlar qədim tariximiz, mədəniyyətimiz, incəsənətimiz, bu yurdun yetirmələri olan ziyalılar və onların fəaliyyətləri ilə tanış edilir. Muzeyə gələn turistlərin sayı ilbəil artır.

Müstəqilliyimizin bərpasından sonrakı dövrdə bu qədim rayonda müasir dövrün tarixini özündə əks etdirən obyektlər yaradılıb. Yollar, körpülər salınıb, enerji, rabitə və su infrastrukturu yeniləşdirilib. Şəhərdə müasir tələblərə cavab verən Avtovağzal kompleksi, Aviakassa binası əhalinin ixtiyarına verilib.

Həmçinin Ordubadda alim və yazıçıların ev-muzeylərinin yaradılması və bərpası da diqqətdə saxlanılır. Akademik, dünya şöhrətli alim, kimya elmi sahəsində yüksək kəşflər edən, 1941-1945-ci illər müharibəsində hərbi sənayenin inkişafında misilsiz xidmətlər göstərmiş Yusif Məmmədəliyev, tarixi roman janrının banilərindən olan məşhur Məmməd Səid Ordubadi və görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin ev-muzeylərinin tikilməsi və ya yenidən qurulması mədəni irsimizə göstərilən dövlət qayğısının bariz nümunələrindəndir. Bu abadlıq-quruculuq işləri bu gün də davam etdirilir. Ordubad günü-gündən inkişaf edir, gözəlləşir və digər rayonlar içərisində öz yerini qoruyub saxlayır.

**Güntac ŞAHMƏMMƏDLİ**
***Naxçıvan Dövlət Universitetinin Radiotelejurnalistika ixtisası üzrə I kurs magistrantı***

# Fərdi qəza sığortasının faydaları çoxdur

***İnsan həyatının və sağlamlığının qorunması cəmiyyətin əsas qayğılarındandır. Bəzən istəməyimizdən asılı olmayaraq, elə gözlənilməz hadisələr baş verir ki, bunun nəticəsində hər bir şəxsin həyatına və sağlamlığına ciddi xəsarət dəyir. Belə xəsarətlərin bərpa olunması üçün isə xeyli müddət və yüksək məbləğdə xərclər tələb olunur. Bu baxımdan baş vermiş qəza hallarında insanların məruz qaldığı xəsarətin aradan qaldırılması məqsədilə ehtiyac olan maddi tələbatın təmin olunması üçün fərdi qəza sığortası xüsusi əhəmiyyət daşıyır. Bu həm də vətəndaşların sosial müdafiəsinin təşkili kimi sığortanın əsas funksiyalarından biri hesab olunur.***

Fərdi qəza sığortası müasir dünyada geniş yayılıb. O, öz formasına görə könüllü sığortadır. Bu sığorta növü tərəflərin qarşılıqlı razılaşması yolu ilə müəyyən olunmuş qaydalar əsasında aparılır. Digər icbari sığorta növləri ilə müqayisədə fərdi qəza sığortasının bir sıra üstünlükləri də vardır. Belə ki, istehsalatda bədbəxt hadisələrdən icbari sığorta yolu ilə sığortalanan şəxslərə yalnız iş vaxtı baş verə biləcək hadisələrdən təminat verilirsə, fərdi qəza sığortası olan insana onun harada olmasından və günün hansı saatından asılı olmayaraq, baş vermiş gözlənilməz, bədbəxt hadisələrdən maddi təminat verilir. Bu isə hər bir insanın həyatı üçün vacib şərtdir. Çünki gündəlik həyatımızda elə hadisələr baş verir ki, onların bəziləri insanların həyat və sağlamlığına zərərlər vurmaqla maddi vəziyyətlərinə ciddi itkilər törədə bilir. Belə hallarla daha etibarlı gələcək üçün sığorta agentliyi tərəfindən həyata keçirilən fərdi qəza sığortası hər kəs üçün əhəmiyyətlidir.

İnsan həyatında sağlamlığın və əmək qabiliyyətinin itirilməsi ilə nəticələnən qəfil, gözlənilməz bədbəxt hadisələrə həmişə, hər yerdə rast gəlmə ehtimalı vardır. İnsanların sosial fəaliyyətlərinin getdikcə daha çox artması, iqtisadi və mədəni həyatdakı sürətli dəyişikliklər, o cümlədən turizm səyahətlərinə yollanmalar belə ehtimalları daha da artırır. Fərdi qəza sığorta hadisəsi hesab olunan belə hadisələrə qarşı sığorta olunduqda sığortaçı tərəfindən zərərçəkmiş vətəndaşa verilən sığorta ödənişləri dəymiş zərərin qarşısının alınması üçün istifadə oluna bilər. Belə zərərlərin isə fiziki, kimyəvi, texniki xarakterli təsadüfi hadisələrdən baş verməsi mümkündür. Belə ki, insanın sağlamlığının və əmək qabiliyyətinin itirilməsi ilə müşayiət olunan qəfil yanğın, partlayış, donma, suda boğulma, elektrik cərəyanı, ildırım, günvurma, vəhşi heyvanların hücumu, tənəffüs yollarına yad əşyanın düşməsi, zəhərli bitkilərdən kəskin zəhərlənmə, eləcə də maşın, mexanizm və alətlərdən istifadə zamanı ona dəymiş zərərə görə sığortalı vətəndaşın özü və ya ailəsi sığorta müqaviləsində göstərilmiş məbləğdə sığorta ödənişi ilə təmin olunur.

Fərdi qəza sığortası tərəflər arasında razılaşdırılmış şəkildə sığorta müqaviləsi bağlamaqla həyata keçirilir. Bu müqaviləyə əsasən sığortalı şəxsin ödədiyi razılaşdırılmış sığortahaqqı müqabilində sığorta hadisəsi baş verdiyi zaman həmin müqavilədə göstərilən sığorta məbləğinin sığortaçı tərəfindən faydalanan şəxsə, yəni sığortaolunana, sığorta zərərin bədbəxt hadisə nəticəsində vəfat etdiyi hallarda isə övladlarına verilməsi nəzərdə tutulur.

Fərdi qəza sığorta növü üzrə müqavilə bağlanarkən sığortalı şəxsin ödədiyi sığortahaqqı razılaşdırılmış sığorta məbləğinə və sığortaolunanın peşəsi və məşğuliyyəti nəzərə alınmaqla müəyyənləşdirilən tarif dərəcəsinin sığorta məbləğinə nisbətdə hesablanmış pul məbləğidir. Bu məbləğ fərdi qəza sığortası üzrə tarif dərəcəsi risklərin səviyyəsindən asılı olaraq 0,5 faizdən 2 faizədək həcmdə müəyyənləşdirilir. Məsələn, aşağı risk dərəcəsində min manat dəyərində sığorta məbləği üçün 0,5 faiz tarif dərəcəsi ilə 5 manat sığortahaqqı ödəməklə müqavilə bağlamaq mümkündür. Beş min manatlıq sığorta məbləği üçün müqavilə bağlandıqda isə 0,5 faiz tarif dərəcəsi ilə 25 manat sığortahaqqı ödənilməlidir. Nisbətən yüksək risk səviyyəsi mövcud olduqda min manatlıq sığorta məbləği üçün 1 faiz tarif dərəcəsi ilə 10 manat sığortahaqqı, beş min manatlıq sığortaməbləği üçün isə 50 manat sığortahaqqı ödənilməklə müqavilə bağlanır. Fərdi qəza sığortası üzrə sığortahaqqı nağd və nəqdiyyəsiz qaydada ödənilə bilər.

İnsanların fəal həyat tərzi gözlənilməz qəfil qəza hadisələrinin də rastgəlmə ehtimalının artmasına səbəb olur. Odur ki, belə gözlənilməz bədbəxt hadisələrdən vaxtında sığortalanmaqla yaranmış çıxılmaz vəziyyətdən, maddi zərərlərdən xilas olmaq mümkündür.

✍ **Əli CABBAROV**

# Milli mədəniyyətimizin və turizm potensialının təbliğində sosial şəbəkələrin rolu

*Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə “Milli mədəniyyətimizin və turizm potensialının təbliğində sosial şəbəkələrin rolu” mövzusunda tədbir keçirilib.*



Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşları Kənan Tağızadə “Sosial şəbəkələrin gənclərə təsiri” və Əkbər Novruzov “Milli mədəniyyətimizin və turizm potensialının təbliğində sosial şəbəkələrin rolu” mövzularında çıxış ediblər. Bildirilib ki, bu gün inkişaf etməkdə olan texnologiyalar sürətlə həyatımızın bir hissəsinə çevrilməkdədir.

Qeyd edilib ki, internetdə Naxçıvan Muxtar Respublikasında mədəniyyət və turizm sahəsi ilə bağlı təbliğat missiyasını da bu texnologiyaların köməyilə, internet şəbəkəsindən istifadə etməklə tam həcmdə həyata keçirmək olar. İnternet resurslarından istifadə edərək qədim diyarımızın mədəniyyətini və turizm potensialını geniş təbliğ etmək üçün hər cür imkanlarımız vardır.

Sonra tədbir iştirakçıları mövzu ilə bağlı müzakirələr aparıblar.

**Əli RZAYEV**

***Son illər muxtar respublikada elm-təhsil, incəsənət sahəsində böyük irəliləyişlərə nail olunub. Festivalların, konsertlərin təşkili artıq ənənə halını almış şəhərimizdə səhnədə çox zaman Naxçıvan Dövlət Filarmoniyasında fəaliyyət göstərən kollektivlərin müxtəlif repertuarlarla çıxışlarını dinləyirik. Bu mədəniyyət müəssisəsinin fəaliyyəti ilə yaxından tanış olmaq üçün adıçəkilən ünvana üz tuturuq. Filarmoniyanın direktoru, Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev ilə həmsöhbət oluruq.***

# Filarmoniyanın repertuarı rəngarəng konsert proqramları ilə zəngindir



***– Elman müəllim, istərdik ki, Naxçıvan Dövlət Filarmoniyasının tarixinə qısa nəzər salaq.***

– 1959-cu ilin sentyabr ayında yaradılan Naxçıvan Dövlət "Araz" Mahnı və Rəqs ansamblı bu torpağın istedadlı müğənnilərini, rəqqaslarını öz ətrafında birləşdirir. Ansambl tez-tez Azərbaycanın bütün bölgələrində, Orta Asiya, Qafqaz ölkələrində qastrollarda olur, çıxışları ilə dinləyicilərin rəğbətini qazanır. 1984-cü ildə həmin ansamblın bazası əsasında bugünkü Naxçıvan Dövlət Filarmoniyası yaradılır. Burada xalq çalğı alətləri və kamera orkestrləri, bir də mahnı və rəqs ansamblı fəaliyyət göstərirdi. 2012-ci ildə isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Sərəncamı ilə Estrada Orkestri də fəaliyyətə başladı.

Kollektivimiz vaxtaşırı Azərbaycanın müxtəlif bölgələrində – Sumqayıt, Gəncə, Bakı və digər şəhərlərdə qastrol səfərlərində olur. Bununla yanaşı, Türkmənistan və Türkiyədə keçirilən festivallarda, həmçinin muxtar respublikada təşkil edilən dövlət səviyyəli konsertlərdə çıxış edir.

***– Filarmoniyaya gənc istedadların cəlbi istiqamətində hansı işlər görülür?***

– Kollektivə gənc kadrların cəlbinə xüsusi diqqətlə yanaşırıq. Belə ki, Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsi, Naxçıvan Musiqi Kolleci və muxtar respublikada fəaliyyət göstərən musiqi məktəbləri ilə sıx əlaqələr saxlayır, onların təşkil etdikləri konsertlərdə iştirak edirik. İfaçılıq potensialı olan şəxsləri buraya işə cəlb edir, yaxud da onlarla birgə konsertlər təşkil edirik. Bir sözlə, muxtar respublikada istedadlı gənclərin ortaya çıxarılması, ixtisasları üzrə təkmilləşməsinə Filarmoniya da öz töhfəsini verir.



Hazırda 180-ə yaxın işçi heyətini öz ətrafında birləşdirən bu mədəniyyət müəssisəsinin gənc musiqiçi kadrların yetişdirilməsində, gələcək sənət yollarında püxtələşməsində mühüm xidmətləri var.

***– Repertuarınızın tərtibi zamanı daha çox hansı janrda əsərlərə üstünlük verirsiniz?***

– Repertuarımıza xalq rəqsləri, təsnifləri, muğamları, Azərbaycan və xarici bəstəkarların klassik əsərləri daxil edilir. Bununla yanaşı, Naxçıvanda yaşayıb-yaradan bəstəkarların əsərləri də yer alır. Filarmoniyanın yaradıcı kollektivi milli-mədəni dəyərlərimizin, yallılarımızın, xalq havacatlarımızın geniş vüsət almasına, milli zəmində, milli ruhda köklənməsinə çalışaraq, layiqli sənət töhfələri ilə musiqisevərlərin görüşündə olurlar.

***– Yaradıcı işlə məşğul olmaq heç də asan deyil. Bu işdə kollektiv hansı çətinliklərlə üzləşir?***

– Müəssisəmiz maddi-texniki baza, müxtəlif avadanlıqlarla təmin olunub. Bundan əlavə, istər səhnə geyimlərinə, istərsə də hansısa musiqi alətinə ehtiyacımız olduqda, müraciətimiz dərhal nəzərə alınır. Bu baxımdan deyə bilərəm ki, bu qəbildən olan hansısa çətinliklə qarşılaşmırıq. Əməyimiz də dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Belə ki, kollektivin bəzi üzvləri yüksək dövlət mükafatları ilə təltif olunub. Hazırda 50-yə yaxın müxtəlif fəxri ad almış əməkdaşımız var. Onlardan Azərbaycan Respublikasının Xalq artisti Əzizağa Məmmədov, Azərbaycan Respublikasının Əməkdar artistləri Gülyanaq Fərzəliyeva, Mübariz Əsgərov, Tural Nəcəfov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Zülfüqar Mahmudov, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Tamerlan Bağırovun adlarını çəkmək olar.

Göstərilən diqqət və qayğı kollektivi daha səylə çalışmağa sövq edir. Onlar həvəslə yeni konsertlərə hazırlaşırlar.

Filarmoniyada kollektivin gənc əməkdaşları ilə də görüşdük. Onlardan Vüsalə Zeynalova dedi:

– Biz gənclərə istedadını nümayiş etdirmək üçün belə bir şəraitin yaradılması təqdirəlayiqdir. Burada səhnə mədəniyyətinə yiyələnir, duyma qabiliyyətimizi inkişaf etdirir, geniş kütlə qarşısında çıxış edirik. Gənc musiqiçi olaraq başa düşürük ki, Azərbaycan musiqisini layiqli şəkildə təbliğ etmək mənəvi borcumuzdur.

Bəli, bir ölkə dünya miqyasında ən çox mədəniyyəti, milli dəyərləri və adət-ənənəsi ilə tanınır. Mədəniyyəti inkişaf etdirmək milli ruhu yaşatmaq deməkdir. Çünki mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. Görkəmli ədibimiz Hüseyn Cavid əbəs yerə deməyib: "Turana qılıncdan daha kəskin, ulu qüvvət Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət". Mədəniyyət varsa, milli mənəviyyat var. Mədəniyyət varsa, dirçəliş, tərəqqi var!

Naxçıvan Dövlət Filarmoniyasının kollektivi bu həqiqəti dərindən dərk edir, öz fəaliyyətini bu istiqamətdə qurmağa səy göstərir.

✍ **Fatma BABAYEVA**

*Yeni nəşrlər*

## Uşaqlara dəyərli töhfə



Yaxın günlərdə Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" mükafatçısı Ramiz Babayevin daha bir şeirlər kitabı işıq üzü görüb. Şair budəfəki kitabını uşaqlara həsr edib. Kitabda 20-yə yaxın şeir dərc olunub. "Balaca kirpi", "Quşların dostu", "Dənizdə çimən ay", "Küsəyən qız", "Kəndi çox sevirəm" və digər şeirlərin hər biri maraqlı və oxunaqlıdır. Şair qələmə aldığı bu şeirlərində uşaqların deyim və duyumlarını, mənəvi dünyasını ustalıqla üzə çıxarmış, rəngarəng bədii lövhələr yaratmışdır.

"Babamın nağılı" şeirində şair yazır:

*Az gedib, üz gedirsən,*
*Dərəylə düz keçirsən.*
*Bir aylıq məsafəni*
*Bir anda qət edirsən.*

*Gah Məlikməmmədləri*
*Endirirsən quyuya.*
*Gah da Əlibaba tək*
*Qoymursan yağ soyuya.*

*Balıqçının toruna*
*Qızıl balıq salırsan.*
*Sonra da qarısından*
*Hər bir şeyi alırsan.*

Şair bu şeirində bir-birinin ardınca nağıl qəhrəmanlarımızı yada salır, onları sadə və anlaşıqlı yolla, poetik deyimlə balaca dostlarının qəlbinə və yaddaşına hopdurur. "Anama" adlı şeirində isə Vətən hissini ön plana çəkir, uşaqları Vətəni və onun bayrağını sevməyə çağırır:

*Vətən mənim atamın,*
*Babamın məsləkyeri.*
*Mənimçün çox əzizdi*
*Vətənin sərhədləri.*

*Bayrağım bu dünyada*
*Hər vaxt tanıdır məni.*
*Onunçün mən bayrağı*
*Sevirəm sənin kimi.*

Kitabda hər bir şeirin dili olduqca sadə, səlis, aydın və axıcıdır. Bu da uşaqların şeiri tez əzbərləməsi və mənimsəməsində əsas amillərdən biridir. Ümidvarıq ki, balaca dostlarımızın mənəvi dünyasına min rəng qatan "Biri vardı, biri yoxdu" şeirlər kitabı uşaqları sevindirəcəkdir.

✍ **Gülcamal TAHİROVA**

***İnsan psixologiyası hər şeyə qadirdir. O, bədəni yönəldən və idarə edən ağıla və ruha sahibdir. Bunun nəticəsində insan ətrafa reaksiya verə bilir. Bu reaksiyanın qarşısının alınması və ya gücləndirilməsi özünə təlqinlə mümkün ola bilər. Bundan daha çox idmançılar istifadə edirlər. Hər bir idmançı psixi tənzimləməyə nail olmaq üçün gündə 3 dəfə olmaq şərtilə 4 ay məşq etməlidir. Alimlər bunu asan psixi tənzimləmə yolu adlandırırlar. Və ya qısa desək, bu, autogen məşqdir.***

*Sağlam həyat tərzi*

# Autogen məşq və onun faydaları

Autogen məşq nədir? Autogen məşq insanın psixi cəhətdən gərginlikdən azad olunması metodudur. Bu məşq XX əsrin əvvəlində alman həkimi tərəfindən işlənib hazırlanmışdır. O hiss etmişdir ki, xəstələr onun yanına həddsiz dərəcədə psixi gərgin vəziyyətdə gəlirlər. Həkim onları bu vəziyyətdən çıxarmaq məqsədilə indi "autogen məşq" adlanan, psixi gərginliyi aradan qaldıran bir metod yaratmışdır. Bu metoddan idmanda çox müvəffəqiyyətlə istifadə etmək mümkündür. Automəşqi bəzən "öz-özünə hipnoz" da adlandırırlar: yəni insan o dərəcədə bu texnologiyanı mənimsəyib özünə təsir eləmək qabiliyyətinə malik olur ki, istənilən vaxt istənilən xəstəlik əlamətini aradan götürə bilir. Bir sıra hallarda onu psixoterapevt icra edir, ancaq burada şəxs heç kəsə müraciət etmir.

Autogenlə məşğul olmaq üçün insan özündə bəzi vərdişləri yaratmağı bacarmalıdır. Bunlar hansılardır:

*– ağırlıq hissi (qollarda və ayaqlarda);*

*– istilik hissi (qollarda və əllərdə yaxşı yeməkdən sonra əmələ gələn və bədəndə hiss edilən bir istilik);*

*– qarın nahiyəsində xoşagələn bir istilik, alında isə xoşagələn bir sərinlik hiss etmək;*

*– ürəyin döyüntüsünü saymaq və sakitliyi təmin etmək.*

Autogen məşqdən necə istifadə edilir? Yuxarıda da qeyd etdiyimiz kimi, insan bu hissiyyatları özündə hiss elətdirməyi bacarmaqdan ötrü gündə 3 dəfə məşq etməlidir. İlk olaraq insan məşqini əsas işlətdiyi əlindən başlayır. Rahat bir yerdə uzanıb bu məşqdə bir əldə ağırlıq hissini yaratmaq üçün diqqətini 60-90 saniyə ərzində həmin fikrin üstündə toplayırsan. Bu hissi gözüyumulu vəziyyətdə keçirməli və ürəyində təkrarlamalısan: mənim sağ əlim ağırdır, mən tam sakitəm. Sonra əllərinin vəziyyətini dəyişirsən. Cəmi üç dəfə olmaqla, özünə qarşı tələbkarlıq və dəqiqliklə keçirilən məşqlər idmançıda bu hisslərin daha tez yaranması ilə nəticələnir. Bununla belə, 4 aydan tez olmayaraq bu elementlər ayrı-ayrılıqda təkrarlanmalıdır. Autogen məşqlərin bir-birindən fərqi yalnız deyilən sözlərdədir. Autogen məşq zamanı insanın fikri yayınarsa, narahat olmaq lazım deyil. Belə hallarda diqqəti daha çox əsas məsələyə yönəltmək kifayətdir. Bu zaman insan istər kənar təsirlərdən, istərsə də məşqə aid olmayan düşüncələrdən rahatlıqla xilas olur. Belə bacarığa malik idmançılar başqalarından daha üstün olurlar. Onlar özlərini tez bir vaxtda əsəbi vəziyyətdən çıxarmağı bacarırlar.

Evdə autogen məşqlər etmək mümkündürmü? Bəli. Hər bir insan dərmansız, psixoloqa müraciət etmədən özünü requlyasiya (autotreninq) məşqləri edərək istədiyi effekti ala bilər. Lakin bu, 15 dəqiqədən çox çəkməməlidir. Əgər bu müddətdə hissiyyatlar alınmırsa, bunu etməyə ehtiyac yoxdur. Çünki bu halda insanın özünə və bacarığına inamı itir və o, sakitləşmək əvəzinə, daha da əsəbiləşməyə başlayır.

Məşqi uzanmış vəziyyətdə və yaxud oturaraq davam etdirmək mümkündür. Oturanda əllər diz üstünə sərbəst qoyulur, gözlər bağlanılır, 3 dəfə dərindən nəfəs alınır. Nəfəsi verəndə bütün bədən əzələləri maksimum dərəcədə boşaldılır. Bu an bütün diqqəti ürəyə yönləndirmək lazımdır. Tənəffüslə ürəyin ritmik və sakit döyüntüsü tənzimlənir. Bundan sonra diqqət ayaq barmaqlarına yönləndirilir. Bu zaman, həqiqətən də, insanda belə bir hiss yaranır ki, bədənin bütün yorğunluğu ayaq barmaqlarından çıxır. Bu zaman həyatın gözəl bir anı təsəvvür edilir. Bu hissi 6-7 dəqiqə keçirmək lazımdır. 3 saniyədən sonra gözlər açılır və gümrahlıq hiss olunur.

Relaksasiya bacarığını o qədər məşq edib artırmaq olar ki, insan cəmi bir neçə saniyə ərzində psixi və əzələ gərginliyindən azad ola bilər. Hətta hiss edəcəksən ki, 2-3 dəfə dərindən nəfəs alıb yavaş-yavaş nəfəs verməklə sən bədənində olan bütün gərginliyi çıxarmağa qadirsən. Bu bacarığa malik insanlar özlərində yüksək sevinc, inam hisslərini də yaratmağa nail olurlar.

Hazırda autogen məşqdən yalnız əsəb pozuntuları, qan təzyiqinin artması, baş, ürək ağrıları və digər xəstəliklərdən əziyyət çəkənlər deyil, idman və yaradıcılıq imkanlarını gücləndirmək istəyən şəxslər də geniş istifadə edirlər.

Nəticədə, autogen məşq bir çox hallarda etibarlı yardım göstərir, insanda özü haqqında aydın təsəvvür yaradır, daxili imkanları ortaya çıxarır. Bu məşq sarsılmış ruhi sağlamlığın bərpa olunmasına, həyatı dolğun və ahəngdar qavramağa kömək edir, insana müasir dövr ilə yanaşı addımlamağa imkan verir, onu xarici amillərin mənfi təsirindən qoruyur. 72 gün müddətində rezin qayıqda Atlantik okeanını tənha fəth edən alman alimi X.Lindeman demişdi: "Sağ qalmaq xoşbəxtliyimi taleyin hədiyyəsi kimi qəbul edərək bütün həyatımı autogen məşqin təbliğinə həsr etməyi qərara aldım".

Bəzi xəstəliklərin əlamətlərini aradan qaldırmağa yönəldilən xüsusi özünütəlqin formulları var. Bu zaman aşağıdakı cümlələrdən istifadə olunmalıdır.

"Tənəffüsüm sərbəstdir, ürəyim ardıcıl və normal döyünür", "Beyin damarlarımda gərginlik yoxdur", "Başımda və bütün bədənimdə tam rahatlıq, aydınlıq və yüngüllük hiss edirəm", "Mən istirahət edirəm", "Mən yatmaq istəyirəm", "Tezliklə yuxuya gedib... saatdan (dəqiqədən) sonra ayılacağam" və sair.

Alimlər bildirirlər ki, autogen məşqlə məşğul olanlar müvafiq ədəbiyyatdan istifadə etməli və vaxtaşırı həkim-psixoterapevtlə məsləhətləşməlidirlər.

✍ **Ceyhun MƏMMƏDOV**

***Bildiriş***

"Təhsil" Respublika İdman Mərkəzinin Naxçıvan Muxtar Respublikası filialı fəaliyyətini dayandırdığından ləğv edilir.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA
**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*
**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
***Nömrəyə məsul:*** **Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1000. Sifariş № 967**